

*Doğma, canım-varlığım qədər sevdiyim Azərbaycanım mənim qibləgahımdır*

# ŞƏRQ qapısı

Qəzet 1921-ci ildən çıxır

Təsisçi: *Naxçıvan Muxtar Respublikası Ali Məclisi və Nazirlər Kabineti*

Sayı: 62 (21.723)

*4 aprel 2017-ci il, çərşənbə axşamı*

*Gündəlik ictimai-siyasi qəzet*

www.serqqapisi.az

Qiyməti 20 qəpik


## *Rəsmi xronika*

Azərbaycan Respublikasında rəsmi səfərdə olan Qazaxıstan Respublikasının Prezidenti Nursultan Nazarbayevin aprelin 3-də rəsmi qarşılanma mərasimi olub.

Rəsmi qarşılanma mərasimindən sonra Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin və Qazaxıstan Respublikasının Prezidenti Nursultan Nazarbayevin məhdud tərkibdə görüşü olub.

Aprelin 3-də hər iki ölkənin dövlət başçılarının geniş tərkibdə görüşü olub.

Geniş tərkibdə görüş başa çatdıqdan sonra Azərbaycan-Qazaxıstan sənədləri imzalanıb.

Daha sonra Prezident İlham Əliyev və Prezident Nursultan Nazarbayev mətbuata bəyanatlarla çıxış ediblər.

Aprelin 3-də Qazaxıstan Respublikasının Prezidenti Nursultan Nazarbayevə "Heydər Əliyev" ordeninin təqdim edilməsi mərasimi olub.

Həmin gün Prezident İlham Əliyevin adından Qazaxıstanın dövlət başçısının şərəfinə rəsmi qəbul təşkil olunub.



## Sənaye muxtar respublika iqtisadiyyatında mühüm yer tutur

***Sənaye iqtisadiyyatın əsas hissəsi olub, cəmiyyətin istehsal gücünün artmasına böyük təsir göstərən müəssisələrin məcmusunu təşkil edir və əsasən iki böyük – hasil və emal edən sahələri özündə birləşdirir. Ölkəmizin, eləcə də muxtar respublikamızın təbii şəraiti, xammal zənginliyi sənayenin müxtəlif istehsal formalarının inkişaf etdirilməsinə şərait yaradır.***



Hələ XX əsrin ortalarından başlayaraq Naxçıvan Muxtar Respublikasının sənayesi Azərbaycan iqtisadiyyatında aparıcı yerlərdən birini tutaraq intensiv inkişaf yoluna qədəm qoyub, ümummilli lider Heydər Əliyevin 1969-cu ildə Azərbaycana rəhbər seçilməsindən sonra yeni vüsət alıb. Ulu öndərin muxtar respublika iqtisadiyyatına göstərdiyi böyük qayğı nəticəsində 1970-1985-ci illərdə iqtisadiyyatın bütün sahələrinin inkişafı üçün Naxçıvan Muxtar Respublikasına 900 milyon manat sərmayə qoyulub, müxtəlif istehsal müəssisələri tikilib istifadəyə verilib. Ötən əsrin sonlarında SSRİ-nin dağılması nəticəsində iqtisadi əlaqələrin pozulması və digər amillər muxtar respublikanın iqtisadiyyatına da təsirsiz ötüşməyib, digər sahələr kimi sənaye də ağır vəziyyətə düşüb. Yalnız 1993-cü ildə ümummilli liderimiz Heydər Əliyevin ölkəmizdə yenidən siyasi hakimiyyətə qayıdışı ilə bütün sahələrdə olduğu kimi, muxtar respublikanın sənayesində də əsaslı islahatlar aparılıb və bunun nəticəsində sənaye məhsulu istehsal edən dövlət və qeyri-dövlət bölmələrində yaradılmış müəssisələr hesabına ümumi sənaye məhsulunun həcmində hər il dinamik artım olub.

Naxçıvan Muxtar Respublikasının son 20 ildən artıq dövrdə keçdiyi iqtisadi inkişaf yoluna nəzər salsaq, görərik ki, sənaye istehsalı bu dövrdə özünəməxsus inkişaf yolu keçib. Belə ki, 1995-2001-ci illərdə aparılmış məqsədyönlü tədbirlər nəticəsində region iqtisadiyyatında yaranmış durğunluq tamamilə aradan qaldırılıb, 2001-ci ildə sənayenin ümumi məhsulunun həcmi 1995-ci illə müqayisədə 1,7 dəfə artıb. Muxtar respublikanın blokada şəraitində olmasına, xammalın və materialın daşınması sahəsində çətinliklərə baxmayaraq, Alt Trikotaj, Tikiş və Mebel fabriklərinin, emal müəssisələrinin, Elektrotexnika Zavodunun fəaliyyəti bərpa edilib, Badamlı-Vayxır-Naxçıvan mineral su kəmərinin çəkilməsi ilə mineral su istehsalı artıb. Şüşə Qablar Zavodunda energetika sənayesi üçün keramik izolyatorların, Dəmir-Beton Məmulatları Zavodunda beton elektrik dirəklərinin, yol kənarına döşəmək üçün beton plitələrin və digər məmulatların istehsalına başlanılıb. Bu dövrdə muxtar respublikada hasil sənayesi də diqqətdən kənarda qalmayıb. Naxçıvanda tikinti materialları, dəmir-beton, kərpic, travertin, mərmər istehsalına başlanılıb və nadir tikinti məhsullarının dünya bazarına çıxarılması təmin edilib. Sonrakı illərdə isə muxtar respublikada davamlı inkişafın təmin edilməsi, sahibkarlıq fəaliyyətinə meylin stimullaşdırılması və bu istiqamətdə bütün cəhdlərin hərtərəfli dəstəklənməsi sahəsində mühüm tədbirlər həyata keçirilib, bu sahədə müxtəlif dövlət proqramları hazırlanıb. İcrası uğurla başa çatan "Azərbaycan Respublikası regionlarının sosial-iqtisadi inkişafı Dövlət Proqramı (2004-2008-ci illər)"nın təsdiq edilməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin Fərmanının icrasını təmin etmək məqsədilə Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin 2005-ci il 9 iyun tarixli Sərəncamı ilə təsdiq edilmiş "Naxçıvan Muxtar Respublikasının Regional İnkişaf Proqramı (2005-2008-ci illər)"nın əsas məqsədi Naxçıvan Muxtar Respublikasında yerli təbii sərvətlərdən səmərəli istifadə etməklə kənd təsərrüfatı məhsullarının istehsalını artırmaq, emal sənayesinin, xidmət və digər infrastruktur obyektlərinin, turizmin inkişafını təmin etmək, məşğulluğun səviyyəsini yüksəltmək və əhalinin güzəranını daha da yaxşılaşdırmaqdan ibarət olub. Həyata keçirilən islahatların davamı olaraq Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin müvafiq Fərmanı ilə təsdiq edilmiş "Naxçıvan Muxtar Respublikasının 2009-2013-cü illərdə sosial-iqtisadi inkişafı Dövlət Proqramı"nın icrasının uğurla başa çatdırılması, Ali Məclis Sədrinin 2014-cü il 1 sentyabr tarixli Fərmanı ilə təsdiq edilmiş "Naxçıvan Muxtar Respublikasının 2014-2018-ci illərdə sosial-iqtisadi inkişafı Dövlət Proqramı"nın icrasının hazırda davam etdirilməsi nəticəsində ciddi iqtisadi uğurlara nail olunub və sürətli inkişaf üçün zəngin potensial formalaşıb. Təkcə "Naxçıvan Muxtar Respublikasının 2009-2013-cü illərdə sosial-iqtisadi inkişafı Dövlət Proqramı"nın uğurlu icrası nəticəsində muxtar respublika sənayesində 5,2 dəfə artım qeydə alınıb. İcrası hazırda davam etdirilən dövlət proqramında isə sənayeləşmə siyasətinə uyğun olaraq muxtar respublikada yerli resurs və xammalla işləyən, ixrac qabiliyyətli məhsullar istehsal edən müəssisələrin yaradılması, dövlət əhəmiyyətli müəssisələrin fəaliyyətinin dəstəklənməsi, xarici və yerli investisiyaların cəlb edilməsi, özəl müəssisələrin fəaliyyətinə dəstək verilməsi, ixtisaslaşmış və ümumi təyinatlı sənaye parklarının yaradılması istiqamətində işlərin davam etdirilməsi nəzərdə tutulub.

Müasir istehsal infrastrukturuna malik sənaye parklarının yaradılması regionda sənaye sahələrinin inkişafının təmin edilməsini nəzərdə tutan dövlət siyasətinin mühüm bir hissəsini təşkil edir. Çünki sənaye parklarının yaradılması iqtisadiyyatın ixrac qabiliyyətinin, eləcə də rəqabətqabiliyyətli, idxalı əvəz edən məhsulların istehsalının artırılması, məşğulluğun təmini, investisiyaların və müasir texnologiyaların cəlb edilməsi kimi vacib məsələlərin həlli baxımından xüsusilə əhəmiyyətlidir. Sənaye parklarının bu əhəmiyyətli cəhətləri nəzərə alınaraq Naxçıvan Muxtar Respublikasında sahibkarlığın inkişafının sürətləndirilməsi məqsədilə sənaye parklarının yaradılmasına başlanılıb. Bu sahədə müvafiq qanunvericilik bazası baxımından Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin 2013-cü il 6 iyun tarixli Fərmanı ilə təsdiq edilmiş "Sənaye parkları haqqında Əsasnamə" sənaye parklarının yaradılmasına, idarə edilməsinə və onlarda sahibkarlıq fəaliyyətinin həyata keçirilməsi ilə bağlı məsələlərin tənzimlənməsinə geniş imkanlar yaradıb.

Ümumilikdə götürsək, ötən dövrdə muxtar respublikada özəl sektorun inkişafına göstərilən dövlət qayğısı nəticəsində yeni istehsal müəssisələrinin sayı artıb, yerli istehsalın həcmi genişlənib. Məsələn, əgər 1996-cı ildə muxtar respublikada 10 adda məhsul istehsal olunurdusa, hazırda 366 adda məhsul istehsal olunur. Yeni yaradılan sahibkarlıq müəssisələri hesabına əhalinin 344 növdə məhsula olan tələbatı tamamilə yerli istehsal hesabına ödənilir. Bu istiqamətdə görülən işlərin nəticəsidir ki, sənaye sahibkarlığı artıq muxtar respublikada özünün yeni inkişaf mərhələsinə qədəm qoyub. Vaxtilə ümumi daxili məhsul istehsalında aqrar sahənin ağırlıq təşkil etdiyi muxtar respublikada bu gün aqrar-sənaye kompleksi böyük üstünlüyə malikdir. Hazırda muxtar respublikada avtomobil və tikinti materialları, ərzaq və məişət əşyaları istehsalı ilə məşğul olan çoxsaylı müəssisələr fəaliyyət göstərir. 1996-cı ildə muxtar respublikada, ümumilikdə, 40 sənaye müəssisəsi vardısa, ötən dövr ərzində onların sayı 11 dəfə artırılaraq 442-yə çatdırılıb. Yeni fəaliyyətə başlayan müəssisələr, əsasən, yerli xammaldan istifadə əsasında fəaliyyətlərini qururlar ki, bu da hazır məhsulun daha ucuz qiymətə istehlakçılara çatdırılmasına imkan yaradır. Hazırda muxtar respublikada mövcud olan 442 istehsal müəssisəsindən 311-i və ya 70 faizi tamamilə yerli xammaldan istifadə edərək fəaliyyət göstərir. Bunun nəticəsində bir tərəfdən digər sahələr də inkişaf edir, ikinci tərəfdən isə daxili bazar etibarlı şəkildə qorunur.

Cari ilin fevral ayında muxtar respublikada fəaliyyət göstərən sahibkarlarla görüşündə Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri deyib: ***"Milli iqtisadiyyatı formalaşdırmaq, daxili bazarı xarici amillərin təsirindən qorumaq üçün sağlam sahibkarlıq mühitinin yaradılması zəruridir. Bu amil nəzərə alınaraq ölkəmizdə, o cümlədən Naxçıvan Muxtar Respublikasında xüsusi mülkiyyətin, kiçik və orta sahibkarlığın inkişafı diqqət mərkəzində saxlanılır. Sahibkarlara göstərilən dövlət maliyyə dəstəyinin həcminin ildən-ilə artırılması, bu sahədə fəaliyyətə süni müdaxilələrin aradan qaldırılması, bir sıra vergi və gömrük güzəştlərinin tətbiqi sahibkarlıq fəaliyyətinin inkişafına öz təsirini göstərmişdir".***

Muxtar respublikada sahibkarlığın inkişafı sahəsində yaradılan şəraitin nəticəsidir ki, hazırda sənaye sahəsində məhsul istehsalının 96 faizi özəl bölmənin payına düşür. Bu isə o deməkdir ki, özəl sektorun inkişaf etdirilməsi sənayenin də inkişafına yol açıb, bu sahədə əhəmiyyətli nailiyyətlər əldə olunub. Ötən il muxtar respublika üzrə ümumi daxili məhsulda 28 faizlik payla ilk yeri sənaye sahəsi tutub və onun ümumi həcmi 942 milyon manatı ötüb. 2017-ci ilin yanvar-fevral aylarında isə 332 milyon 643 min 300 manatlıq ümumi daxili məhsul istehsal olunub ki, burada da ilk yeri sənaye sahəsi tutur. Sənaye üzrə 164 milyon 647 min 700 manat həcmində məhsul istehsal edilib ki, bu da 2016-cı ilin müvafiq dövründəki göstəricini 0,9 faiz üstələyir. Buradan isə o nəticəyə gəlmək mümkündür ki, sənaye sahibkarlığı muxtar respublika iqtisadiyyatının lokomotivini təşkil edir.

**✍ Səbuhi HƏSƏNOV**

## Naxçıvanda suvarma mövsümünə hazırlıq işləri görülür

***Muxtar respublikada suvarma mövsümünün mütəşəkkil keçirilməsi diqqətdə saxlanılır. Tərtib edilmiş qrafikə uyğun olaraq nasos stansiyalarında və digər hidrotexniki qurğularda təmir işləri aparılır, əkin sahələrində şoranlaşma və bataqlaşmanın qarşısını almaq üçün kollektor və drenajlar lildən təmizlənir.***

2017-ci ilin birinci rübündə 99 kilometr magistral kanal, 96 kilometr ara arxları, 8 kilometr kollektor lildən təmizlənmiş, 21 kilometr içməli su xətti təmir olunmuş, sututarlara 195 milyon kubmetrdən artıq su ehtiyatı yığılmışdır. Bundan başqa, yaşayış məntəqələrini və əkin sahələrini yaz aylarında sel sularının zərərli təsirindən qorumaq məqsədilə 8 kilometr məsafədə istiqamətləndirici bənd tikilmişdir.

Kanallarda su itkilərini azaltmaq məqsədilə həyata keçirilən tədbirlər davam etdirilmiş, Uzunoba Su Anbarına sugətirən kanalın 550, suaparan kanalın isə 940 metri beton panellərlə yenidən tikilmişdir. Ötən dövrdə suvarma və içməli su mənbəyi kimi istifadə olunan 7 subartezian quyusunda yeni nasos quraşdırılmış, 1 kəhrizin təmirbərpası başa çatdırılmışdır.

"Su Təchizatı və Kanalizasiya İnvestisiya Proqramı" layihəsi çərçivəsində Babək rayonunun Şıxmahmud kəndində müxtəlif diametrli borularla 34 kilometr kanalizasiya xətti və 37 kilometr içməli su xətti çəkilmiş, 1090 ev kanalizasiya şəbəkəsinə qoşulmuş və 1035 sayğac quraşdırılmışdır. Şərur rayonunda isə müxtəlif diametrli borularla 34 kilometr içməli su xətti çəkilərək 517 ev birləşməsi aparılmışdır.

***Naxçıvan Muxtar Respublikası Dövlət Meliorasiya və Su Təsərrüfatı Komitəsinin mətbuat xidməti***

***Mənalı ömür yaşamış Əziz Əliyev bir evə, ailəyə, bir ölkəyə sığmayan bəşəri bir şəxsiyyət, dünyanın bütün tərəqqipərvər xalqlarına eyni hörmət və məhəbbətlə yanaşan humanist insan kimi yaddaşlarda qalıb. Onun həyatının bütün mərhələləri xalqımıza, dövlətçiliyimizə xidmət nümunəsi olub.***

# Görkəmli dövlət və elm xadiminin adını daşıyan, gələcəyimiz olan uşaqların sağlamlığının keşiyində duran ünvan

## *Əziz Əliyev adına Naxçıvan Muxtar Respublikası Mərkəzi Uşaq Xəstəxanasında bu gün müasir tibbin imkanlarından geniş istifadə olunur*



"Azərbaycanın görkəmli dövlət və elm xadimi Əziz Əliyevin 120 illik yubileyinin keçirilməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin 2016-cı il noyabrın 18-də imzaladığı Sərəncam alimin respublikada səhiyyə sisteminin inkişafı istiqamətindəki fəaliyyətinə verilən yüksək qiymətdir. Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri ötən il noyabrın 21-də "Azərbaycanın görkəmli dövlət və elm xadimi Əziz Əliyevin 120 illik yubileyinin Naxçıvan Muxtar Respublikasında keçirilməsi ilə əlaqədar Tədbirlər Planı"nın təsdiq edilməsi haqqında Sərəncam imzalayıb. Tədbirlər planına əsasən yubiley tədbirləri keçirilir. Bundan əlavə, Naxçıvan şəhərində alimin adını daşıyan prospekt və Naxçıvan Muxtar Respublikası Mərkəzi Uşaq Xəstəxanası yenidən qurulur. Bütün bu tədbirlər həyatını elmin inkişafına həsr etmiş alimin əziz xatirəsinə dərin hörmət və ehtiramın ifadəsidir.

Naxçıvan şəhərinin ən görməli yerlərindən birində görkəmli dövlət və elm xadiminin adını daşıyan, gələcəyimiz olan uşaqların sağlamlığının keşiyində dayanan ünvana çevrilən Əziz Əliyev adına Naxçıvan Muxtar Respublikası Mərkəzi Uşaq Xəstəxanası 1973-cü il iyulun 17-dən fəaliyyət göstərsə də, yalnız müstəqillik illərində məhsuldar dövrünü yaşamağa başlayıb. Mərkəzi Uşaq Xəstəxanası kimi 2006-cı ildə bir neçə tibb ocağının bazasında yaradılıb, binası yenidən qurularaq istifadəyə verilib, şəfa ocağı ən müasir avadanlıqlarla təchiz edilib, maddi-texniki bazası gücləndirilib.

Mərkəzi Uşaq Xəstəxanasının baş həkimi Rəhim Rəhimovla söhbətimiz zamanı dedi ki, bu gün səhiyyə ocağında səkkiz şöbə üzrə 91 həkim, 253 tibb bacısı, 57 sahə işçisi olmaqla, 300-dən çox tibb işçisi gələcəyimiz olan uşaqların sağlamlığının keşiyində dayanaraq səylə çalışırlar. 50 çarpayılıq xəstəxanada əməkdaşlar gün ərzində yüzlərlə uşağın müayinə və müalicəsini aparırlar. Hər cür şərait, tibbi personalın dərin bilik və bacarığı nəticəsində xəstəxana bu gün işini uğurla davam etdirir, müasir tibbi avadanlıqların imkanlarından istifadə olunur. Səhiyyə ocağında muxtar respublikanın balaca sakinlərinə keyfiyyətli tibbi xidmətin göstərilməsi, müxtəlif xəstəliklərin müalicəsi üçün hərtərəfli şəraitin yaradılması uşaqların muxtar respublikadan kənarda müalicə olunmaları zərurətini tamamilə aradan qaldırıb. Valideynlər öz xəstə uşaqlarını müalicə etdirmək üçün Bakıya və digər şəhərlərə üz tutmaq məcburiyyətində qalmırlar. Artıq bu səhiyyə ocağı müxtəlif xəstəliklərin müalicə olunmasına yenilikçi yanaşır, tibbi heyət öz bilik və bacarığını günü-gündən artırır.

Uşaqların və yeniyetmələrin sağlamlıqlarının qorunması baxımından Mərkəzi Uşaq Xəstəxanası tərəfindən həyata keçirilən profilaktik tədbirlərin də böyük əhəmiyyəti vardır. Bu məqsədlə hər ilin yaz və payız aylarında məktəblərdə tibbi müayinələr aparılır, bu şəfa ocağında təşkil olunan həkim briqadaları tərəfindən yerlərdə, eləcə də ucqar dağ və sərhəd kəndlərində müayinələr həyata keçirilir, uşaqlar cərrah, pediatr, LOR, stomatoloq, nevropatoloq, oftalmoloq, endokrinoloq, ortoped müayinəsindən keçirlər. Təbii ki, məqsəd uşaqlarda baş verə biləcək patologiyaları vaxtında aşkarlamaq və ağırlaşmaların qarşısını almaqdır. Daha sonra uşaqlar dispanser qeydiyyatına götürülür, müayinə və müalicəyə cəlb olunurlar. Effektiv müayinələrin aparılması üçün məktəblərdə lazımi şərait də yaradılıb. Müayinə zamanı sağlamlığında hər hansı problem aşkar edilən uşağın dərhal xəstəxanaya gətirilməsi də təmin edilib.

Xəstəxanada diqqətçəkən məqamlardan biri də gənc kadrlara tibbi heyətdə üstünlük verilməsidir. Sevindirici haldır ki, bu gün səhiyyə müəssisəsində çalışan heyətin əksəriyyəti muxtar respublikada fəaliyyət göstərən tibbi təhsil ocaqlarının məzunlarıdır. Bundan başqa, burada mütəmadi olaraq seminarlar, mühazirələr təşkil edilir. Xəstəxananın əsas vəzifələrindən biri də uşaqların sağlamlığının keşiyində durmaqla yanaşı, yoluxucu xəstəliklərin qarşısını almaq üçün qoruyucu profilaktik peyvəndlərin vaxtında aparılmasını təşkil etməkdir. Peyvəndləmə prosesinin xəstəxana tərəfindən yüksək səviyyədə aparılması uşaqların sağlam böyüməsinə təminat verir. Xəstəxana tərəfindən muxtar respublikada fəaliyyət göstərən pediatrlara metodik tövsiyələr verilir, pediatriyanın aktual məsələləri ilə əlaqədar seminarlar keçirilir. Onu da qeyd edək ki, 2009-cu ildən etibarən xəstəxanada uşaqlar üçün elektron sağlamlıq kartlarının açılmasına başlanılıb. Bu kartlarda muxtar respublikada doğulan uşaqların bütün inkişaf göstəriciləri və digər məlumatlar yer alır. Muxtar respublikadan dünyanın istənilən yerinə səyahət edən valideynlər uşağın səhhətində problemlər yaranacağı təqdirdə bu kartı istənilən səhiyyə ocağına təqdim edə və beləliklə də, müayinə və müalicənin sürətlə aparılmasına kömək edə bilərlər. Xəstəxana tərəfindən muxtar respublikada fəaliyyət göstərən fiziki imkanları məhdud uşaqların reabilitasiyası üzrə ixtisaslaşmış digər müəssisələr ilə də sıx əlaqə yaradılıb, bir çox işlər birgə əməkdaşlıq çərçivəsində görülür.

Xəstəxananın həkimi, Naxçıvan Muxtar Respublikasının Əməkdar həkimi Nəsib Nəbiyev söhbət zamanı bildirdi ki, uşaqlara göstərilən tibbi xidmətin keyfiyyətinin yaxşılaşdırılması dövlətin sosial siyasətinin prioritet istiqamətlərindən biridir. Bu istiqamətdə görülən işlərin, aparılan islahatların məntiqi davamı kimi uşaqlar icbari dispanserizasiyaya cəlb ediliblər. Bu tədbir uşaqların sağlamlığının qorunması və möhkəmləndirilməsinin təşkilati-hüquqi əsaslarını, uşaqlar arasında aparılan müalicə-profilaktika tədbirlərini müəyyən edən, bu sahədə yaranan münasibətləri tənzimləyən "Uşaqların icbari dispanserizasiyası haqqında" 5 mart 2013-cü il tarixli Azərbaycan Respublikası Qanununun və ölkə Prezidentinin 10 dekabr 2013-cü il tarixli Sərəncamı ilə təsdiq edilən "Uşaqların icbari dispanserizasiyadan keçirilməsinə dair Dövlət Proqramı"nın tələblərinə uyğun olaraq aparılır. Ümumiyyətlə, son illər muxtar respublikamızda bu sahədə mühüm tədbirlər həyata keçirilib və keçirilməkdədir. Uşaqlara tibbi yardım göstərən tibb müəssisələrinin maddi-texniki bazasının yaxşılaşdırılması, onların müasir tibbi texnika və ləvazimatlarla təchiz edilməsi, yeni tibbi texnologiyaların tətbiqi, tibbi kadrların peşə səviyyəsinin artırılması və digər tədbirlər muxtar respublikada uşaqlara göstərilən tibbi xidmətin keyfiyyətinin artırılmasına imkan verib. Həyata keçirilən bütün bu tədbirlər nəticəsində uşaqların sağlamlığını xarakterizə edən göstəricilərdə müsbət dinamika müşahidə olunur. İcbari dispanserizasiya zamanı valideynlərini itirmiş, valideyn himayəsindən məhrum olmuş, sağlamlıq imkanları məhdud uşaqların dispanserizasiyasına da böyük həssaslıqla yanaşılıb. Bu tədbirlərin uğurla həyata keçirilməsində Naxçıvan Muxtar Respublikası Mərkəzi Uşaq Xəstəxanasının kollektivi fəal iştirak edib. Müəssisədə 0-17 yaş arası uşaqların adlı siyahısı hazırlanıb, pediatr, LOR-həkim, oftalmoloq, stomatoloqdan ibarət həkim briqadaları təşkil olunaraq ilkin dispanser müayinələrə başlanılıb. Bu müayinələr zamanı xəstə, xəstəliyə şübhəli və ya meyilli uşaqlar aşkar edilib. Sonrakı mərhələdə müayinələr zamanı ehtiyac olan hallarda xəstə uşaqların daha yüksəkixtisaslı mütəxəssis həkimlər (ftiziatr, kardioloq, nevropatoloq, dermatoloq, uroloq və sair) tərəfindən konsultasiyası, lazım olan hallarda isə stasionar müalicəsi təşkil olunub. Dispanser qeydiyyatına alınmış uşaqlara müşahidə kartları açılıb və onlar arasında mövcud təlimata uyğun müalicə-profilaktika tədbirləri həyata keçirilib. Dispanserizasiyanın uğurla aparılmasında valideynlərin, təhsil işçilərinin rolunu xüsusi qeyd etmək lazımdır. Onlar uşaqların müayinələrə cəlb olunmasında, xüsusi müayinələrdən keçirilməsində fəal iştirak ediblər. Əminliklə demək olar ki, valideynlər və digər qurumların əməkdaşları tibb işçilərinə çox yaxından köməklik göstərməklə gələcəyimiz olan uşaqların sağlamlığı üçün əllərindən gələni əsirgəmirlər. Çünki ulu öndərimizin dediyi kimi: ***"Bu gün doğulan, dünyaya gələn uşaqlar, bu gün ilk addımlarını atan körpələr XX əsrdə dünyanın məsələlərini həll edəcəklər, bəşəriyyəti yaşadacaqlar. Ona görə də uşaqların sağlamlığının təmin olunması və qorunması hər bir dövlət üçün çox böyük və müqəddəs vəzifədir".***

Azərbaycan Respublikasının Əməkdar həkimi Nizami Məmmədovla söhbətimiz zamanı bildirdi ki, ürəklərdə əbədi yuva quran şəxsiyyətlərdən biri, fədakar alim və görkəmli siyasi xadim olan Əziz Əliyev bir insan, vətəndaş kimi həkimə, həkimliyə böyük qiymət verirdi. İnsanın sağlamlığı, fiziki kamilliyi onun üçün həyatda ən əsas meyarlardan biri idi. Həkimlik onun gözlərində dünyanın çətinliklərindən qurtuluş vasitəsi idi. Hansı sahədə çətinliklər mövcud idisə, Əziz Əliyev oraya göndərilir və o, həmin yerdə işləri tənzimləyirdi. Bu gün Əziz Əliyevin adını daşıyan xəstəxanada çalışan hər bir insan bu işin nə qədər məsuliyyətli olduğunu başa düşür, bu böyük insan kimi yaşamağa, onun kimi çalışmağa səy göstərir.

Naxçıvan Muxtar Respublikasının Əməkdar həkimi Yazgül Rzayeva bildirdi ki, 1930-cu ilin əvvəllərində Qarabağın indiki Xocavənd rayonunda qəflətən vəba xəstəliyi yayılmağa başlayır. Xəstəlik sürətlə artıb ətraf rayonlara da keçir. O zaman tibb sahəsində məsul vəzifədə olan Əziz Əliyev bütün səhiyyə ordusunu səfərbərliyə alır. Moskvadan akademik Lev Aleksandroviç gəlir. Amma epidemiya getdikcə daha da çoxalır. Təxribatçılar, daha doğrusu, erməni və ermənipərəst xislətli araqarışdıranlar vəziyyətdən istifadə edib gərginlik yaratmaq üçün ətrafı bürümüş vəba epidemiyası ilə bağlı əhali arasında dəhşətli şayiələr yayırdılar. Yalnız Əziz Əliyevin rəhbərliyi ilə həyata keçirilən tədbirlərdən sonra xəstəliyin qarşısı alınır. Bəli, Əziz Əliyevin yorulmaz fəaliyyəti minlərlə insanı ölümdən qurtarır. O, tibb sahəsində əsl xilaskar idi.

...1998-ci il may ayının 14-də görkəmli alim, ictimai xadim Əziz Əliyevin anadan olmasının 100 illik yubileyi dövlət səviyyəsində qeyd edilib. Yubiley tədbirində çıxış edən ümummilli liderimiz Heydər Əliyev alimin şəxsiyyətini yüksək qiymətləndirərək deyib: ***"Əziz Əliyev Azərbaycan xalqının görkəmli nümayəndələrindən biridir. O lap əvvəldən qeyri-adi insan idi. O həm həkim, həm alim, həm də səhiyyə təşkilatçısı idi. O, dövlət xadimi, nazir, çətin illərdə Azərbaycanın rəhbərlərindən biri, XX əsrin ən ağır illərində Dağıstanın birinci rəhbəri idi, Moskvada, sonra isə Azərbaycanda məsul işdə çalışmışdı. Ancaq eyni zamanda onun həyatı heç də asan keçmirdi, maneələrlə, çətinliklərlə, özünə qarşı edilən bir çox haqsızlıqlarla rastlaşırdı. Amma bunların hamısını aradan qaldırır və yolundan dönmürdü".***

*Bəli, hər il yüzlərlə insan Əziz Əliyevin xatirəsini yad edir. Muxtar respublikada da onun əziz xatirəsi dərin hörmətlə yad edilir, yaşadılır. Əziz Əliyevin adını daşıyan, müqəddəs vəzifəni həyata keçirən xəstəxananın kollektivi üçün də öz işinə məhəbbət və məsuliyyətlə yanaşmada, istərsə də insan həyatına, sağlamlığına vicdani, munis dəyərlərlə xidmət etmədə Əziz Əliyev məfkurəsi parlaq bir örnəkdir. Vətəndaşlarımızın mənəvi və fiziki kamilliyinə, sağlam bədən və sağlam ruhla qurub-yaratmaq eşqinə dəyərli töhfə verən bir örnək...*

**✍ Səbuhi HÜSEYNOV**

## Ötən ay səhiyyə xidmətinin əhatə dairəsi genişlənib

Naxçıvan Muxtar Respublikası Səhiyyə Nazirliyi əhalinin sağlamlığının qorunması və tibbi xidmətin səviyyəsinin yüksəldilməsi istiqamətində fəaliyyətini mart ayında da davam etdirib, səhiyyə sisteminin yenidən qurulması və müasir standartlara uyğunlaşdırılması, ixtisaslı kadrların hazırlanması, yoluxucu xəstəliklərin profilaktikası həmişəki kimi diqqət mərkəzində saxlanılıb.

Muxtar respublikada aparılan genişmiqyaslı quruculuq işləri çərçivəsində ötən ay Şərur Rayon Mərkəzi Xəstəxanası əsaslı təmir, yenidənqurmadan sonra əhalinin istifadəsinə verilib, burada kompüter-tomoqrafiya aparatı quraşdırılıb.

Səhiyyədə gedən islahatlara uyğun olaraq Şərur rayon Ələkli və Culfa rayon Dizə kənd həkim ambulatoriyaları feldşer-mama məntəqəsi ilə əvəz edilib, Ordubad rayon Məzrə kənd feldşer-mama məntəqəsinin fəaliyyəti dayandırılıb, Şərur rayon Ərəbyengicə kənd həkim ambulatoriyasının ştat strukturunda dəyişikliklər edilib.

Azərbaycan Respublikası QİÇS-lə Mübarizə Mərkəzi və Qlobal Fond tərəfindən Naxçıvan Muxtar Respublikası Yoluxucu Xəstəliklər Mərkəzinin QİÇS-lə mübarizə şöbəsinə HİV, hepatit B, C və sifilis testləri, reaktiv və tibbi materiallar və 18 nəfər xəstədə ARV terapiya aparmaq üçün dərman preparatları, Azərbaycan Respublikası Elmi-Tədqiqat Ağciyər Xəstəlikləri İnstitutundan Naxçıvan Muxtar Respublikası Ağciyər Xəstəlikləri Dispanserinə genexpert cihazı (vərəm çöplərinin ilkin təyini) üçün reaktivlər, tibbi materiallar və şprislər gətirilib.

Mart ayı ərzində tanınmış kardioloq Rəşad Mahmudovun iştirakı ilə Azərbaycan Səhiyyə Nazirliyi Mərkəzi Neftçilər Xəstəxanasının Ürək və damar xəstəlikləri şöbəsi Naxçıvan Diaqnostika-Müalicə Mərkəzinin Kardiocərrahiyyə şöbəsinin heyəti ilə birgə 4 nəfərdə açıq ürək əməliyyatı aparıb.

Naxçıvan Muxtar Respublikası Ağciyər Xəstəlikləri Dispanserinin həkim briqadası Kəngərli Rayon Mərkəzi Xəstəxanasında və Xok kəndində, Culfa Rayon Mərkəzi Xəstəxanasında və Göydərə kəndində, Naxçıvan şəhərinin Tumbul kəndində, Ordubad rayonunun Gilançay və Baş Dizə kəndlərində 24 mart – Beynəlxalq Vərəmlə Mübarizə Gününə həsr edilmiş elmi-praktik seminarlar keçirib. Diaskintest preparatından səmərəli istifadə edilməsi haqqında həkimlərə və orta tibb işçilərinə tapşırıqlar verilib.

Türkiyə Respublikası Ankara Koru Xəstəxanasının baş həkimi Həsən Bilirin rəhbərliyi ilə həkim heyəti Naxçıvan Muxtar Respublika Xəstəxanasında konfrans və seminarlarda iştirak edib, xəstələri müayinədən keçirib.

Muxtar respublikamızın səhiyyə sistemində kadrların bilik və bacarığının artırılması vacib məsələ kimi diqqət mərkəzində saxlanılıb. Mart ayında keçirilən orta tibb işçilərinin sertifikasiya imtahanında 42 orta tibb işçisi iştirak edib, onlardan 25 nəfəri uğurlu nəticə qazanıb.

Bir həkim Malayziyanın paytaxtı Kuala Lumpur şəhərində fəaliyyət göstərən Gleneagles Xəstəxanasında USM üzrə təkmilləşdirmə, 2 həkim Bakı şəhərinin tibb müəssisələrində iş yerində təcrübə kurslarına göndərilib.

Naxçıvan Muxtar Respublikası Səhiyyə Nazirliyi mart ayı ərzində 19 nəfəri Bakı şəhərinin Şağan qəsəbəsində fəaliyyət göstərən Əlillərin Müalicə Pansionatına, 26 nəfəri Mərdəkan qəsəbəsindəki Müharibə və Əmək Veteranları Pansionatına, 11 nəfəri müxtəlif xəstəxanalara müalicəyə göndərib.

***Naxçıvan Muxtar Respublikası***

# Naxçıvan Dövlət Radiosu internetdən yayıma başlayıb

*Bu il yanvarın 28-də Naxçıvan Muxtar Respublikası Ali Məclisində kütləvi informasiya vasitələrinin fəaliyyəti və qarşıda duran vəzifələr mövzusunda müşavirə keçirilib. Müşavirədə Ali Məclisin Sədri televiziyanın və radionun efir vaxtının bir saat artırılması, rayonlarda müxbir postlarının yaradılması və radionun internet üzərindən yayıma başlaması barədə tapşırıqlar verib. Verilən tapşırıqlar icra olunub, teleradionun efir vaxtı daha bir saat artırılıb, müxbir postlarının fəaliyyəti təmin edilib və Naxçıvan Dövlət Radiosu internet üzərindən yayıma başlayıb.*



Aprelin 1-də Naxçıvan Muxtar Respublikası Dövlət Televiziya və Radio Verilişləri Komitəsində bu münasibətlə tədbir keçirilib.

Tədbirdə Naxçıvan Muxtar Respublikası Dövlət Televiziya və Radio Verilişləri Komitəsinin sədri Sahil Tahirli çıxış edərək televiziyanın keçdiyi inkişaf yolundan danışıb.

Qeyd edilib ki, Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin diqqət və qayğısı ilə Naxçıvan Dövlət Televiziyası və Radiosu böyük inkişaf yolu keçib, teleradio müstəqil kanalda yayımlanmağa başlayıb, televiziyanın maddi-texniki bazası xeyli möhkəmləndirilib, rəqəmsal formatda – HD yayımı təmin edilib. İstər Naxçıvan Dövlət Televiziyasında, istərsə də Naxçıvan Dövlət Radiosunda yaradılan maddi-texniki baza, öz növbəsində, yaradıcı işin keyfiyyətinə də təsir edib. Əgər əvvəllər Naxçıvan Dövlət Televiziyasının istehsalı olan telemateriallar ümumi efirin 20-25 faizini təşkil edirdisə, hazırda bu rəqəm 65-70 faizədək yüksəlib. Son illər ərzində 60-dan artıq sənədli və televiziya filmi çəkilib. Sahil Tahirli yaradılan şəraitə və göstərilən qayğıya görə Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədrinə kollektiv adından dərin minnətdarlığını bildirib.

Naxçıvan Muxtar Respublikası Ali Məclisi Aparatının rəhbəri Əli Həsənov tədbirdə çıxış edərək bildirib ki, bu gün Naxçıvanda radionun fəaliyyətə başlamasının 85-ci ildönümü tamam olur. Teleradionun ötən dövrdə keçdiyi yola nəzər saldıqda aydın olur ki, onun inkişafının əsas mərhələsi son 20 ilə düşür. 1996-cı ildən müstəqil kanalda yayımlanmağa başlayan teleradionun efir vaxtı əvvəlcə 4, sonra isə ardıcıl olaraq 8, 14 və 17 saatadək artırılıb.

"Şübhəsiz ki, muxtar respublika rəhbərinin himayəsi olmasaydı, Naxçıvan Dövlət Televiziyası və Radiosu bu inkişafa nail ola bilməzdi", – deyən Ali Məclis Aparatının rəhbəri hörmətli Sədrimizin qayğısı nəticəsində Naxçıvan Dövlət Televiziyası və Radiosunun maddi-texniki bazasının gücləndirilməsi istiqamətində ardıcıl işlərin görüldüyünü də diqqətə çatdırıb. Vurğulanıb ki, ötən dövrdə Naxçıvan Dövlət Televiziya və Radio Verilişləri Komitəsinin binasında yenidənqurma işləri aparılıb, yeni studiya avadanlıqları, videokameralar, avtomobillər, kompüter dəstləri alınıb, teleradio müasir texniki avadanlıqlarla təchiz edilib, yeni studiyalar, müasir iş və efir şəraiti yaradılıb, Naxçıvan Dövlət Televiziyasının internet üzərindən yayımına başlanıb.

Diqqətə çatdırılıb ki, televiziyanın maddi-texniki bazasının gücləndirilməsi və işin keyfiyyətinin artırılması istiqamətində həyata keçirilən tədbirlər bu il də davam etdirilib. Naxçıvan Muxtar Respublikası Ali Məclisində kütləvi informasiya vasitələrinin fəaliyyəti və qarşıda duran vəzifələr mövzusunda keçirilən müşavirədə Ali Məclisin Sədri televiziyanın və radionun efir vaxtının bir saat da artırılması, rayonlarda müxbir postlarının yaradılması və onların fəaliyyətinin təmin olunması, radionun internet üzərindən yayıma başlaması barədə tapşırıqlar verib. Verilən tapşırıqlar qısa müddətdə icra olunub, rayon icra hakimiyyətlərinin binalarında müxbir postları üçün iş otaqları ayrılaraq telefon və kompüterlə təmin edilib, videomateriallarının sürətli və təhlükəsiz ötürülməsi üçün "İntranet" şəbəkəsi quraşdırılıb. Bu gün – Naxçıvan Dövlət Teleradiosunun 85 illiyi günündə isə Naxçıvan Dövlət Televiziyası və Radiosunun efir vaxtı bir saat da artırılaraq 18 saata çatdırılıb, radionun internetdən canlı olaraq yayımına başlanıb.




Ali Məclis Sədrinin qayğısı ilə televiziya və radioda mərhələli şəkildə görülən bu işlər, dövlət televiziya və radiosunun internetdən dünyaya yayımlanması yaradıcılıq və texniki imkanları artırmaqla yanaşı, həm də Naxçıvanda informasiya blokadasının yarılmasına hesablanıb. Bütün bunlar eyni zamanda muxtar respublika rəhbərinin kütləvi informasiya vasitələrinin inkişafına göstərdiyi qayğının parlaq ifadəsidir. Kollektiv yaradılan şəraitdən səmərəli istifadə etməli, televiziyanın və radionun öz istehsalı olan verilişlərin həcmi və keyfiyyəti artırılmalı, balanslaşdırılmış proqram siyasəti aparılmalı, müxbir postlarının fəaliyyəti səmərəli olmalıdır.

Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri cənab Vasif Talıbov deyib: ***"İnformasiya vermək, maarifləndirmək, bu günümüzün tarixini yaratmaq, milli dəyərlərimizi təbliğ etmək və ictimaiyyəti düzgün istiqamətləndirmək kütləvi informasiya orqanlarının qarşısında duran əsas vəzifələrdir".***

Ali Məclis Aparatının rəhbəri bu vəzifələrin icrasında uğurlar arzulayıb, əldə olunan nailiyyətlər və Naxçıvan teleradiosunun 85-ci ildönümü münasibətilə kollektivi təbrik edib.

Naxçıvan televiziyasının gənc əməkdaşı İradə Quliyeva bildirib ki, bu gün artıq Naxçıvan televiziyası rəngarəng veriliş və proqramlarla tamaşaçı və dinləyicilərin görüşünə gəlir. Əldə olunan bütün bu nailiyyətlərin hər biri dövlət qayğısının, televiziyamıza ayrılan diqqətin sayəsində mümkün olub. Yaradılan şəraitə və göstərilən qayğıya görə yaradıcı gənclər adından minnətdarlığını ifadə edən İradə Quliyeva bundan sonra da səylə çalışacaqlarını bildirib.

Tədbirdə Naxçıvan teleradiosunun səmərəli fəaliyyət göstərən bir qrup əməkdaşına mükafatlar verilib.

Sonra Naxçıvan Dövlət Radiosunun ***naxcivantv.az*** saytı üzərindən yayımının təqdimatı olub. Bildirilib ki, həm kompüter, həm də mobil telefonlardan naxcivantv.az saytına daxil olaraq Naxçıvan Dövlət Radiosunu dinləmək mümkündür. Bununla da, artıq Naxçıvan Dövlət Radiosu efir ərazisini genişləndirərək həm ölkədə, həm də dünyada dinləniləcəkdir.

Aprelin 1-dən etibarən muxtar respublikanın rayonlarında Naxçıvan Televiziyasının müxbir postları da fəaliyyətə başlayıb. Yeni yaradılan müxbir postları Şərur, Babək, Ordubad, Culfa, Kəngərli, Şahbuz və Sədərək Rayon İcra hakimiyyətlərinin binalarında yerləşir. Rayon icra hakimiyyətlərinin hər birində müxbir postları üçün ayrıca otaq ayrılıb, videomaterialların sürətli ötürülməsini təmin etmək məqsədilə müasir və sürətli kompüterlərdən istifadə olunaraq "İntranet" şəbəkəsi quraşdırılıb. Bu şəbəkə audio və videomaterialların mərkəzə sürətlə ötürülməsini və operativliyi təmin edəcək, əlavə vaxt itkisinin qarşısını alacaq, çəkilişlər üçün ayrılan xərcləri minimuma endirəcəkdir.

Qeyd edək ki, Naxçıvan Dövlət Televiziyası gündəlik efirini səhər saat $08^{00}$-da başlayacaq və gecə saat $02^{00}$-da başa çatdıracaq. Naxçıvan Dövlət Radiosu isə səhər saat $07^{00}$-dan gecə saat $01^{00}$-dək efirdə olacaqdır.

**"Şərq qapısı"**

# Naxçıvan "AITF-2017"də təmsil olunacaq



***Aprelin 6-dan 8-dək Bakı Ekspo Mərkəzində XVI Azərbaycan Beynəlxalq Turizm və Səyahətlər "AITF-2017" sərgisi keçiriləcək.***

Naxçıvan Muxtar Respublikası Mədəniyyət və Turizm Nazirliyindən bildirilib ki, muxtar respublika sərgidə "Naxçıvan" stendi ilə təmsil olunacaq. Stenddə muxtar respublikaya dair təbliğat materialları, turizm marşrutlarını əks etdirən bukletlər, mehmanxanaların reklam materialları nümayiş etdiriləcək. Sərgidə Naxçıvan Muxtar Respublikası Mədəniyyət və Turizm Nazirliyinin əməkdaşları və mehmanxanaların nümayəndələri iştirak edəcək.

Sərgi turizm sektorunun, dövlət strukturlarının və həm yerli, həm də regional turizm təşkilatlarının, eləcə də kütləvi informasiya vasitələrinin nümayəndələrini növbəti dəfə bir araya gətirəcək. Xəzəryanı regionun turizm sənayesinin əsas sərgisində mühüm görüşlərin keçirilməsi, əməkdaşlıq müqavilələrinin imzalanması, habelə yeni proqram və turizm marşrutlarının elan edilməsi gözlənilir.

Bu il sərgidə müxtəlif turizm istiqamətləri, hava yolları və mehmanxana şəbəkələri, eləcə də turizm sahəsinin digər xidmət növləri təqdim ediləcək. İştirakçılar arasında Azərbaycan, İtaliya, İsveçrə və bir sıra ölkələri təmsil edən şirkətlər yer alır. Ənənəvi olaraq sərgidə milli və regional stendlər də iştirak edir. Belarus, Çexiya, Dominikan Respublikası, Gürcüstan, Mərakeş və Tailand kimi ölkələr sərgidə milli stend, Roqaşka Slatina (Sloveniya) və Stavropol vilayəti (Rusiya) isə regional stendlə iştirak edəcəklərini təsdiq ediblər.

Sərgi çərçivəsində vorkşop keçiriləcək və bu tədbir aparıcı yerli turizm şirkətləri ilə işgüzar əlaqələr qurmaq və vasitəçi olmadan birbaşa danışıqlar aparmaq imkanı yaradacaq.

Beləliklə, "AITF" sərgisi növbəti dəfə müxtəlif işgüzar tapşırıqların həlli, yeni turizm məhsullarının elan edilməsi, tərəfdaşlar arasında görüşlərin keçirilməsi və möhkəm işgüzar əlaqələrin qurulması üçün möhtəşəm platformaya çevriləcək.

# Tədris prosesində müasir texnologiyalardan istifadə imkanları müzakirə edilib

***"Naxçıvan" Universitetində "Tədris prosesinin yeni standartlara uyğun təşkilində müasir texnologiyalardan istifadə imkanları" mövzusunda konfrans keçirilib. Ali təhsil ocağının Pedaqogika və Psixologiya, Riyaziyyat və informatika kafedralarının təşkil etdiyi konfransı giriş sözü ilə universitetin tədris işləri üzrə prorektoru, tarix üzrə fəlsəfə doktoru, dosent İbrahim Kazımbəyli açaraq müasir dövrdə İKT-nin təhsil sahəsində əhəmiyyətli rolundan söhbət açıb.***

Universitetin Riyaziyyat və informatika kafedrasının müdiri, dosent Məftun Əliyevin "Ali məktəblərdə distant təhsil və onun üstünlükləri", Pedaqogika və psixologiya kafedrasının müəllimi Aytən Məmmədovanın "Müasir təhsil sistemində texnologiyaların rolu", Riyaziyyat və informatika kafedrasının müəllimi Türkan Tağıyevanın "Təhsilin informasiyalaşdırılması pedaqoji elmin yeni sahəsi kimi" və Pedaqogika və psixologiya kafedrasının müəllimi Nübar Səfərlinin "Kurikulum üsulunda İKT-nin rolu və yeri" mövzusunda məruzələri dinlənilib.

Bildirilib ki, müasir dövrdə İKT-nin inkişaf etdirilməsi hər bir ölkənin intellektual və elmi potensialının vacib göstəricilərindən biridir və bu prosesin zəruriliyi artıq daha çox hiss olunur. Bu texnologiyaların sürətli inkişafı və yayılması bəşəriyyətin inkişafı üçün geniş imkanlar yaradır. Ölkəmizdə də informasiya cəmiyyətinin qurulması və kompüterləşmə sahəsində uğurlu addımlar atılıb. Məhz bu səbəbdən də son illər təhsil sistemində İKT infrastrukturunun inkişaf etdirilməsi və təhsildə İKT-nin tətbiqinin dünya standartları səviyyəsinə çatdırılması ölkəmizdə prioritet istiqamətlərdən biridir.

**Nuray ƏSGƏROVA**

# Əlahiddə Ümumqoşun Ordunun müxtəlif güc strukturları ilə birgə komanda-qərargah təlimi başa çatıb

***Əlahiddə Ümumqoşun Ordunun müxtəlif güc strukturları ilə birgə komanda-qərargah təlimi başa çatıb. Təlimə 3 min nəfərədək şəxsi heyət, 200-dən artıq avtomobil və döyüş texnikası cəlb olunub.***



Üç mərhələdə keçirilən təlimin birinci mərhələsinə uyğun olaraq, birləşmə və hissələr həyəcan siqnalı ilə qaldırılaraq cəmləşmə rayonlarına çıxarılıb. Cəmləşmə rayonlarında qoşunların idarə olunması praktik şəkildə həyata keçirilib.

Təlim planında Naxçıvan Muxtar Respublikasına qarşı yönəlmiş silahlı təcavüzün dəf edilməsi məqsədilə müdafiə əməliyyatının aparılması, düşmənin darmadağın edilməsi üzrə müxtəlif güc strukturlarının birgə fəaliyyətinin planlaşdırılması və təşkili, müdafiənin dərinliyinə soxulmuş düşmənin məhv edilməsi və müdafiənin əlverişli hədd üzrə bərpa olunması əsas məqsəd kimi qarşıya qoyulub.

Döyüş əməliyyatlarının planlaşdırılması zamanı komandir heyətinin kəskin dəyişən döyüş şəraitində çevik qərar qəbuletmə üzrə bilik və bacarıqlarının artırılmasına nail olunub. Eyni zamanda qərargahlararası məlumat mübadiləsinin vaxtında həyata keçirilməsi məqsədilə müasir texnoloji vasitələrdən istifadə edilib.

Təlimin gedişində ideoloji qərargah yaradılıb, mənəvi-psixoloji hazırlıq məntəqələri, ideoloji otaqlar və səhra ideoloji guşələri fəaliyyət göstərib. Şəxsi heyətin peşəkarlıq səviyyəsinin təkmilləşdirilməsi məqsədilə məşğələlər keçirilib.

Tibb təminatının yüksək səviyyədə təşkili üçün səhra tibb məntəqələri fəaliyyət göstərib. Təlimə cəlb edilmiş birləşmə və hissələr səhra şəraitində hərtərəfli şəraitlə təmin edilib. Tapşırıqlar yüksək peşəkarlıqla yerinə yetirilib.

Komanda-qərargah təlimi uğurla başa çatıb, qarşıya qoyulan bütün məqsədlərə tam nail olunub.

**Xəbərlər şöbəsi**

# Dost haqqında vida sözü



***Əvvəllər Naxçıvandan Ləkətağa bir neçə dəfə yolum düşüb. Haca-dağın, Əlincəqalanın möhtəşəm mənzərəsinin həvəskarı kimi bu istiqamətdə ilin hər fəslində getməyi arzulamışam. Amma, nə zamansa, sərt küləkli bir gündə əslən Ləkə-tağlı jurnalist həmkarımız, "Şərq qapısı" qəzetində uzun illərdən bəri çalışan Kərəm Həsənovu son mənzilə yola salmaq üçün gedə-cəyimi düşünməmişdim...***

Kərəm müəllimlə ilk tanış olduğum günü o qədər də dəqiq xatırlamıram. Ona görə yox ki, bu, çoxdan olub. İş ondadır ki, "Şərq qapısı" qəzetində onun imzası ilə gedən yazılara tez-tez rast gəlirdim. 2005-ci ildən başlayaraq ara-sıra bu qəzetdə məqalələrim dərc olunanda və nəhayət, 2011-ci ildən bu redaksiyada çalışmağa başlayan gün özümü muxtar respublikamızın ən güclü qələm sahibləri arasında gördüm. Və Kərəm müəllim də bu redaksiyadakı yaradıcı insanlarla bir sırada idi.

Qələm sahibləri yaradıcı olmaqla həm də həssas insan, yaxşı dostdurlar. İşdə bəzi umu-küsülər olsa da, bu sənət sahiblərini ortaq dəyərlər sevincli və kədərli günlərdə həmişə bir araya toplayıb. 2017-ci ilin sulu qarlı, soyuq bir günündə – aprelin 2-də Ləkətağ qəbiristanlığında kənd camaatı ilə birgə mərhum Kərəm Həsənovla vidalaşan həmkarlarımızın sayının çoxluğu da bunu təsdiq edirdi.

"Şərq qapısı" böyük bir məktəbdir. Çox uzun müddət olmasa da, amma altı il ərzində Kərəm müəllim və digər jurnalist həmkarlarımla gec saatlaradək redaksiyadakı işimizi ən qabaqcıl məktəbdə belə, aldığım təhsildən daha səmərəli hesab edirəm. Kərəm müəllim də, necə deyərlər, bu məktəbdə qəzet işinin bütün incəliklərini yaxşı bilən yorulmaz bir insan idi. Yaşı 55-i keçsə də, üçüncü mərtəbədəki redaksiyanın pilləkənlərini elə buradakı gənclər kimi cəldliklə qalxardı. Bir küskünlüyü olsa da, onu heç zaman büruzə verməyən, ətrafındakı insanlara həmişə pozitiv ruh yaradan birisi idi. Hər səhər redaksiyadakı iş otağımıza daxil olarkən sanki illərlə görüşmürmüşük kimi hərarətlə əlimizi sıxması, hal-əhval tutması həmin günün sonunadək hər kəsin yaradıcılıq enerjisinə güc qatardı. Kompüterdən istifadə etməzdi, amma bütün yazıları kompüter dəqiqliyi qədər səhvsiz və etibarlı idi. Dostlarına çox vaxt əl tutması, Naxçıvanın harasında olursa-olsun, dostunun, iş yoldaşlarının dar gününə tələsməsi ona xüsusi hörmət qazandırmışdı. Yazılarından işgüzarlıq, torpaq ətri duyulardı. Naxçıvanın blokada illərinin çətin dövrlərini yaşamış birisi kimi işgüzar, halal zəhmət sahibləri olan insanlar haqqında yazı yazmaq onun məqalələrinin, oçerklərinin əsas mövzusu idi. Kimisə tənqid etməyə meyilli deyildi Kərəm müəllim. Bunu onunla əsaslandırardı ki, insanları tənqidlə deyil, düz yola dəvət etməklə tərbiyələndirmək lazımdır.

...Daha aramızda olmayacaq Kərəm müəllim...

O biri dünyan da işıqlı olsun, əziz dostumuz!

**Əli CABBAROV**

# Uşaqlar arasında şeir müsabiqəsi keçirilib

***2 aprel – Beynəlxalq Uşaq Kitabı Günü ilə əlaqədar Naxçıvan Muxtar Respublikası Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi, Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsi və Yazıçılar Birliyinin təşkilatçılığı ilə Heydər Əliyev Uşaq-Gənclər Yaradıcılıq Mərkəzində sağlamlıq imkanları məhdud uşaqlar arasında "Müstəqilliyimiz əbədidir" mövzusunda II muxtar respublika şeir müsabiqəsi keçirilib.***

Naxçıvan Muxtar Respublikası Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi yanında Dövlət Sosial Təminat Xidmətinin rəisi Murtuz Qasımov, Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsinin şöbə müdiri Sahir Rüstəmov və Yazıçılar Birliyinin üzvü Əbülfəz Ülvi çıxış edərək bildiriblər ki, müsabiqənin keçirilməsində məqsəd uşaqlarda müstəqilliyimizə sevgi aşılamaq, kitaba marağı artırmaq və sağlamlıq imkanları məhdud uşaqların cəmiyyətlə bağlılıqlarını daha da möhkəmləndirməkdir.

Vurğulanıb ki, Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin 2016-cı il 11 yanvar tarixli Sərəncamı ilə təsdiq edilmiş "2016-2020-ci illərdə Naxçıvan Muxtar Respublikasında sağlamlıq imkanları məhdud uşaqların təhsil və reabilitasiyası üzrə Dövlət Proqramı"nda sağlamlıq imkanları məhdud uşaqların istedadlarının aşkara çıxarılması, o cümlədən yaradıcılıq müsabiqələrinin keçirilməsi də yer alıb. Bu mənada, keçirilən şeir müsabiqəsi uşaqların asudə vaxtının səmərəli təşkilinə, cəmiyyətdə özlərini realizəetmə imkanlarının artırılmasına, ictimai həyatın aktiv iştirakçısı olmaq bacarıqlarının üzə çıxarılmasına şərait yaradır. Muxtar respublikada uşaqların kitaba marağını artırmaq üçün uşaq ədəbiyyatının nəşri də diqqət mərkəzində saxlanılır. Son illər "Uşaqlar və Günəş" almanaxı, "Şeir və hekayələr", "Təmsillər", "Poema və pyeslər", kiçikhəcmli kitablar yüksək tərtibatla çap olunub, uşaqyaşlı oxucuların istifadəsinə verilib. Bundan əlavə, muxtar respublikada dövlətin dəstəyi ilə yaradıcılıq qabiliyyəti olan uşaqların kiçikhəcmli şeir kitabları çap olunur, onların istedadları üzə çıxarılır. Bütün bunlar uşaqların bədii zövqünün inkişaf etdirilməsinə, gələcəkdə onların hərtərəfli, bilikli vətəndaş olmasına hesablanmış tədbirlərdir.

Sonra muxtar respublikanın bütün rayonları üzrə 30 uşaq müxtəlif şeirləri bədii qiraət edib. Müsabiqədə Ramil Ələkbərov I yerə layiq görülüb. Qızbəsti Quliyeva və Minayə Muradlı II yerə, Fəxriyyə Allahverdiyeva, Rəqsanə Əlsgərova və Nəzrin Hüseynli III yerə layiq görülüblər.

Sonda qaliblər və həvəsləndirici yerlərə layiq görülənlər təşkilatçılar tərəfindən diplom və hədiyyələrlə mükafatlandırılıb, müsabiqədə iştirak edən bütün uşaqlara hədiyyələr verilib.

***Naxçıvan Muxtar Respublikası Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsinin mətbuat xidməti***

# Beynəlxalq Uşaq Kitabı Günü qeyd edilib

***Məmməd Tağı Sidqi adına Naxçıvan Dövlət Kukla Teatrında 2 aprel – Beynəlxalq Uşaq Kitabı Günü ilə bağlı tədbir keçirilib.***

Tədbiri giriş sözü ilə Naxçıvan Muxtar Respublikası Mədəniyyət və Turizm Nazirliyinin şöbə müdiri Həsən Kərimov açaraq qeyd edib ki, uşaq ədəbiyyatının inkişafında əvəzsiz rolu olan danimarkalı yazıçı Hans Xristian Andersenin anadan olduğu gün – 2 aprel tarixi 1967-ci ildən etibarən Uşaq Kitabları üzrə Beynəlxalq Şuranın təşəbbüsü ilə bütün dünyada "Beynəlxalq Uşaq Kitabı Günü" kimi qeyd olunur. Bildirilib ki, bu günün keçirilməsində məqsəd uşaqların intellektual inkişafında kitabın rolunu göstərmək, kitaba sevgi aşılamaq və diqqəti uşaq kitabının nəşrinə yönəltməkdir.

Dünya və Azərbaycan uşaq ədəbiyyatının yaranması, inkişafı və nəşrindən də söhbət açılaraq vurğulanıb ki, XIX-XX əsrlərdə ölkəmizdə uşaq ədəbiyyatı inkişaf edib. Ötən əsrin əvvəllərində Mirzə Ələkbər Sabir, Abdulla Şaiq, Abbas Səhhət, Süleyman Sani Axundov, Cəlil Məmmədquluzadə, Sultan Məcid Qənizadə və başqa görkəmli sənətkarlarımız uşaqlar üçün gözəl əsərlər yazıblar. Ötən əsrin əvvəllərində o, Azərbaycanda nəşr olunan "Dəbistan", "Rəhbər", "Məktəb", "Babayi-Əmir" jurnalları da uşaq ədəbiyyatının inkişafında mühüm rol oynayıb.

Həsən Kərimov ölkəmizdə uşaqlar üçün kitabların nəşrinə böyük diqqət yetirildiyini bildirib, dövlətimiz tərəfindən uşaqlar üçün nəfis kitabların nəşr edilməsindən söhbət açıb. O, muxtar respublikamızda son illərdə uşaq kitablarının nəşrinə diqqət yetirildiyini vurğulayaraq qeyd edib ki, Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin kitabxanalara, kitab nəşrinə göstərdiyi qayğı muxtar respublikada uşaq ədəbiyyatı nəşrlərinin sayının artmasına səbəb olub.

Bildirilib ki, Naxçıvan Yazıçılar Birliyi uşaq kitablarının nəşri ilə bağlı müəyyən işlər görüb. "Uşaqlar və Günəş" kitabı muxtar respublika rəhbərinin qayğısı ilə işıq üzü görüb və ictimaiyyət tərəfindən maraqla qarşılanıb. Bundan başqa, uşaq ədəbiyyatının nümunələrini əks etdirən bir neçə kitab hazırlanaraq nəşr edilib. Uşaqlar üçün hazırlanan kitabların mövzu müxtəlifliyi və tərtibatı da hər zaman yazıçı və şairlərimizi düşündürən məsələdir. Maraqlı illüstrasiyalarla, mövzu rəngarəngliyi ilə zəngin olan kitablar uşaqları daha çox cəlb edir.

Sonra uşaqlar arasında uşaq ədəbiyyatı üzrə viktorina keçirilib və qaliblər son illər dilimizdə nəfis şəkildə nəşr olunmuş dünya uşaq ədəbiyyatı nümunələrindən ibarət kitablarla mükafatlandırılıblar. Viktorinadan sonra balaca oxuculara Naxçıvan Dövlət Kukla Teatrının hazırladığı "Niyyət açarı" tamaşası göstərilib.

Sonda Adil Babayev adına Naxçıvan Muxtar Respublika Uşaq Kitabxanasının təşkil etdiyi kitab sərgisinə baxış olub.

**Əli RZAYEV**

***Yaz-yay mövsümünün başlanması ilə əlaqədar AMEA Naxçıvan Bölməsinin Bioresurslar İnstitutunun Nəbatat bağında mövcud yaşıllıqlara qulluq edilməklə yanaşı, bağın təcrübə sahəsinə yeni ağac və dekorativ gül bitkiləri salınır.***

# Nəbatat bağına yeni ağac və dekorativ gül kolları əkilir



AMEA Naxçıvan Bölməsinin Bioresurslar İnstitutunun direktoru, AMEA-nın həqiqi üzvü Tariyel Talıbov və Nəbatat bağının şöbə müdiri biologiya üzrə fəlsəfə doktoru, dosent Teyyub Paşayev tərəfindən AMEA-nın Dendrologiya İnstitutundan, İran və Türkiyə respublikalarından, Batumi Botanika Bağından gətirilən, xüsusi sahələrə əkilən yeni bitki növlərinin arasında xeyli sayda otaq bitkiləri, müxtəlif kaktus növləri, palma tingləri, müxtəlif şam ağacı növləri və digər bitki nümunələri var.

Əkilən bitkilərin yerli şəraitə uyğunlaşması müəyyən ediləcək, əldə olunan yeni növlər artırılaraq yaşıllaşdırma işlərində, müxtəlif təşkilatların ərazilərində və fermer təsərrüfatlarında istifadə olunacaq.

AMEA Naxçıvan Bölməsinin Bioresurslar İnstitutunun Nəbatat bağında bitki ehtiyatlarının xammal bazasını zənginləşdirmək məqsədilə təcrübə sahələrinə ayrı-ayrı torpaq və iqlim xüsusiyyətlərinə malik bəzək, dərman və digər bitki nümunələri əkilərək üzərlərində elmi-tədqiqat işləri həyata keçirilir. O cümlədən nadir və nəsli kəsilməkdə olan bitki növlərinin artırılması və bu bitkilərin qorunması tədbirlərinə xüsusi önəm verilir.

Qeyd edək ki, bağın ərazisində qurulan "Ultra Sera" ailəsinə məxsus son texnologiyaya malik istixanada yetişdirilən müxtəlif iqlim şəraitlərinə uyğun olan bitki növlərinin toxumlarından alınan cücərtilər üzərində hazırda müşahidələr aparılır. Bu bitki növlərinin Naxçıvanın torpaq-iqlim şəraitinə uyğunlaşdırılması, introduksiya edilməsi böyük müvəffəqiyyət hesab oluna bilər.

***AMEA Naxçıvan Bölməsinin İnformasiya şöbəsi***

# Hərbi-idman oyununun qalibləri məlum olub

Şərur Rayon Gənclər və İdman İdarəsi, Təhsil Şöbəsi və Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidmətinin Şərur Rayon İdarəsinin təşkilatçılığı ilə Şərur rayonunda yerləşən "N" hərbi hissəsində məktəblilər arasında "Şahin" hərbi-idman oyunu keçirilib.

Yarışda 15 məktəbdən 210 şagird iştirak edib.

Yarışın nəticəsinə əsasən, İbadulla kənd tam orta məktəbinin komandası qalib adını qazanıb. Digər iki pillədə Mahmudkənd və Oğlanqala kənd tam orta məktəblərinin komandaları qərarlaşıblar.

Qaliblər təşkilatçılar tərəfindən kubok və diplomlarla mükafatlandırılıblar.

# Futbol turnirinə start verilib



***Azərbaycan Futbol Federasiyaları Assosiasiyasının muxtar respublikada aşağı yaş qruplarına aid komandalar üçün təşkil etdiyi turnirlərə start verilib.***

Şərur Olimpiya-İdman Kompleksində keçirilən turnir aprelin 8-dək davam edəcək. Reqlamentə əsasən, 10, 11, 12, 13 və 14 yaşlı uşaqlardan ibarət komandalar mübarizə aparırlar. 2016-2017-ci il mövsümünün oyunlarında muxtar respublikanın şəhər və rayonlarını bu yaş qrupunda olan komandalar təmsil edirlər.

Oyunlara Bakı şəhərindən gələn 4 hakim tərəfindən nəzarət edilir.

Ümumtəhsil məktəbləri arasında "Coca-Cola Məktəbli Kuboku" turnirinin də cari mövsümünün oyunları keçirilir. Bu turnir və müəyyən edilmiş yaş qruplarında qalib gələn komandalar Bakıda keçiriləcək final görüşlərində muxtar respublikanı təmsil edəcəklər.

**Ceyhun MƏMMƏDOV**

# "Naxçıvan" Universiteti kafedralarda boş olan yerləri tutmaq üçün müsabiqə elan edir

1. Azərbaycan dili və ədəbiyyat kafedrası üzrə:

– Dosent – 1 yer (tam ştat)

Sənədlər qəzetdə dərc edildiyi gündən bir ay müddətində təqdim edilə bilər. Müsabiqədə iştirak etmək istəyənlər sənədlərini mövcud əsasnaməyə müvafiq olaraq rektorun adına ərizə ilə birlikdə aşağıdakı ünvana göndərə bilərlər.

Ünvan: Az-7000, Naxçıvan şəhəri, Babək məhəlləsi, "Naxçıvan" Universiteti şəhərciyi.

*Tel: 545-07-45*

***Rektorluq***

***İtmişdir***

Xətai məhəlləsi 25/19-da qeydiyyatda olan Qafarov Fazil Qulu oğlunun adına verilmiş MH-001608 nömrəli çıxarış itdiyindən etibarsız sayılır.


ŞƏRQ qapısı

Baş redaktor müavini:
RAUF KƏNGƏRLİ

Ünvan: AZ-7000,
Naxçıvan şəhəri, "Təbriz" küçəsi 1.

Telefonlar: Məsul katib: 545-62-47
Şöbələr: 545-81-44, 545-51-18
Müxbirlər: 545-75-21, Faks: 544-52-52
E-mail: serqqapisi@nakhchivan.az

Qeydiyyat №: 575

Əlyazmalara cavab verilmir və onlar geri qaytarılmır

Nömrəyə məsul: Səbuhi Hüseynov

Qəzet redaksiyanın kompüter mərkəzində yığılıb, səhifələnib və Əcəmi NPB-də ofset üsulu ilə çap olunmuşdur.

Tiraj: 1000. Sifariş № 271